# Təmsilçilərimiz Avropa idman tarixində iz qoymağı bacardılar



İndi Avropanın nəbzi Azərbaycanda döyünür. Bütün nəzərlər paytaxtımız Bakıya yönəlib. Ölkəmiz ilk Avropa Oyunlarına yüksək səviyyədə hazır olduğunu açılış mərasimində sübut etdi. Eyni zamanda hər gün keçirilən müxtəlif idman yarışlarında bu həqiqət öz əksini tapmaqdadır.

Birinci Avropa Oyunları ilə bağlı hər bir məqama xüsusi həssaslıqla yanaşan Azərbaycan möhtəşəm açılış etməklə adını dünya idman tarixinə qızıl hərflərlə yazdırdı. Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə qısa zamanda böyük işlərin görülməsi Azərbaycanın təşəbbüsləri gerçəkləşdirmək iqtidarında olduğunu göstərdi. Tədbirin kompozisiyası humanizmi, sülhü, sivilizasiyalar arasında barışığı əks etdirdi. Bir sıra dövlət və hökumət başçılarının, rəsmi qonaqların iştirak etdikləri mərasimdə Azərbaycanın zəngin və qədim tarixi, mədəniyyəti, qüdrəti bütün dünyaya nümayiş etdirildi. Bununla ölkəmiz, həmçinin Avropa Oyunlarının standartlarını müəyyən etdi. Ölkəmizə gələn idmançılar, xarici media nümayəndələri, turistlər Azərbaycanın inkişafını daha yaxından müşahidə etmək imkanı qazandılar. Bununla ölkəmiz demokratik dəyərlərə sadiqliyini bir daha sübuta yetirdi.

Bu gün Avropanın idman paytaxtına çevrilən Bakı möhtəşəm görüntülərə şahidlik edir. Avropanın 50-yə yaxın ölkəsindən gələn 6 mindən çox atlet idmanın müxtəlif növləri üzrə birincilik uğrunda mübarizə aparır. Bu sırada Azərbaycan idmançılarının uğurlu çıxışını xüsusi olaraq vurğulamaq lazımdır. Elə ötən müddət ərzində qazanılan qələbələr, əldə edilən medallar belə deməyə əsas verir. İdmançılarımız inamla mübarizə apararaq fəxri kürsünün ən yüksək pilləsinə qalxır, himnimizi səsləndirir, bayrağımızı yüksəyə qaldırırlar. İdmançılarımızı qələbəyə həvəsləndirən ən mühüm şərt isə Prezident İlham Əliyevin, “Bakı-2015” Avropa Oyunları Təşkilat Komitəsinin sədri, Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın onlara dəstəyidir. Dövlət başçımız bir çox yarışları canlı izləyir, qalib gələn idmançılarımızı şəxsən təbrik edir, qələbə sevincini onlarla bölüşür. Bununla ölkə rəhbəri hər bir azərbaycanlının Prezidenti olduğunu bir daha nümayiş etdirir.

Birinci Avropa Oyunlarının möhtəşəmliyi təkcə idmançıların uğurları ilə yadda qalmır. İnfrastrukturundan tutmuş, xidmət personalına qədər bütün işlər bir-birini tamamlayır. Bunu ölkəmizdə olan turistlər, qonaqlar da təsdiqləyirlər. Hər bir Azərbaycan vətəndaşını qürurlandıran anlardan biri də odur ki, analoji yarışlar digər ölkələrdə keçirilən zaman Azərbaycanın təcrübəsindən mütləq istifadə olunacaq. Oyunların yüksək səviyyədə davam etməsi bunu deməyə əsas verir. Avropalı mütəxəssislər etiraf edirlər ki, oyunlar üçün ən müasir elementləri özündə ehtiva edən idman qurğularında texnologiyaların ən son nailiyyətləri tətbiq olunub və bütün infrastruktur bir-birini tamamlayır.

Fərəhlə qeyd etmək olar ki, birinci Avropa Oyunlarının keçirildiyi günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Beynəlxalq Sambo Federasiyasının prezidenti Vasili Şestakov tərəfindən sambonun çempion kəmərini təqdim etdi.

Çempion kəmərinin təqdim edilmə mərasimində Prezident İlham Əliyev çıxış edərək qürur hissi ilə bildirdi ki, sambo birinci Avropa Oyunlarının proqramına daxil edilib. Bu, Prezident Putinlə mənim birgə təşəbbüsüm idi. Bu idman növü bizdə çox sevilir. Bu yarışlardan sonra, fikrimcə, sambo bölməsinə axın daha da artacaq. Çünki hamı gözəl bilir ki, cüdo olimpiya idman növü olduğuna görə gəncləri və uşaqları özünə daha çox cəlb edir. Hamı olimpiya çempionu olmaq istəyir. Biz sambonu da bu cür dəstəkləyirik və dəstəkləyəcəyik.

“Zəfər Günləri” layihəsi hər gün idmançıları, onların yaxınlarını, KİV nümayəndələrini Milli Olimpiya Komitəsində bir yerə toplayır. Hər gün medal qazanan idmançılar burada mükafatlandırılır. Birinci Avropa Oyunlarında Azərbaycan idmançılarının uğurlu nəticələrə imza atması Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin idmana göstərdiyi qayğının bariz nümunəsidir. Ölkəmizdə idman çox geniş şəkildə inkişaf etdirilir və bu, birinci Avropa Oyunlarında öz təsdiqini tapır.

İftixar hissi ilə qeyd etmək lazımdır ki, Avropa Oyunlarında qazanılan qızıl medalların sayına görə Azərbaycan Rusiya Federasiyasından sonra ikinci yerdə gedir. İdmançılarımızın gümüş və bürünc medalları da yetərincədir.

Bakıda keçirilən I Avropa Oyunları başa çatmaqdadır. Paytaxtımızda bayram ab-havası davam etməkdədir. Azərbaycan idmançılarının qazandıqları qələbələr bu əhval-ruhiyyəni daha da alovlandırır. Hamı yarışların uğurla bitməsini və möhtəşəm bağlanış mərasimini böyük maraq və səbirsizliklə gözləyir.

Bu gün birinci Avropa Oyunlarına uğurla ev sahibliyi edən Azərbaycan inkişafın sürətli mərhələsini yaşayır. Avropa ailəsinin ən fəal üzvlərindən birinə çevrilən ölkəmiz bununla bir daha ictimai-siyasi, sosial-iqtisadi layihələrlə yanaşı, idman sahəsində də həyata keçirilən islahatların önündə getdiyini ortaya qoyur.

**Ağaəli ƏHMƏDOV,**
**Nəsimi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini,**
**YAP Siyasi Şurasının üzvü.**